**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

---

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

=================================================

Əlyazması hüququnda

**ŞAKUR ORUC OĞLU SƏFƏROV**

# KƏND TƏSƏRRÜFATINDA İQTİSADİ MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2014**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə emlər doktoru, professor
**Bəyalı Xanalı oğlu Ataşov**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru
**Natiq Əli oğlu Cavadov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Püstə Oruc qızı Fərhadi**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu**

Müdafiə 27 fevral 2014-cü il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 24 yanvar 2014-cü ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Qloballaşma prosesinin dərinləşməsi hər bir ölkənin milli iqtisadiyyatına və onun sahə strukturuna əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan milli iqtisadiyyatın mühüm və starteji əhəmiyyətli sahəsi olan kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi ölkənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. Kənd təsərrüfatında iqtisadi münasibətlər sistemi bütövlükdə ölkənin iqtisadi sistemin tipindən və xarakterindən bilavasitə asılı olur. Bazar münasibətləri şəraitində kənd təsərrüfatı liberal iqtisadi münasibətlər sisteminin klassik qanunauyğunluqlarına tabe olsa da, bütün bunlar sahənin maraqlarına və o cümlədən kənd təsərrüfatında əmtəə istehsalçılarının geniş təkrar istehsal rejimində fəaliyyət göstərməsinə yetərincə imkan vermir. Bu baxımdan kənd təsərrüfatında bazar özünütənzimləmə mexanizminin doğurduğu neqativ təzahürlərin aradan qaldırılması məqsədilə iqtisadi münasibətlərin tənzimlənməsinə, qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə ciddi ehtiyac duyulur.

Aparılan araşdırmalar göstərir ki, bazar təsərrüfatçılıq sisteminə keçidlə bağlı həyata keçirilən islahatların ilkin mərhələlərində kənd təsərrüfatında dövlətin iqtisadi tənzimləmə vasitələri tamamilə liberallaşdırılmışdır. Kənd təsərrüfatında bazar münasibətlərinin inkişafı istiqamətində qəbul edilən qanunvericilik aktlarında mülkiyyətin özəlləşdirilməsi ön plana çəkilmiş, azad rəqabətə əsaslanan bazar mühiti formalaşdırılmışdır. Təbii ki, bütün bunlar kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsinə əlverişli şərait yaratmış, bundan əlavə yerli əmtəə istehsalçılarının iqtisadi müstəqilliyinin təmin edilməsi reallaşdırılmışdır.

Bununla yanaşı, kənd təsərrüfatının sahəvi xüsusiyyətləri, xüsusilə təbii-iqlim şəraitindən asılılığı, azgəlirliliyi, azad bazar rəqabətinə davam gətirmək iqtidarında olmaması yerli əmtəə istehsalçılarının maliyyə nəticələrinə mənfi təsir göstərmiş və göstərməkdədir. Yeni yaradılmış sahibkarlıq qurumlarının maliyyə imkanlarının məhdud olması onların aqrotexniki tədbirləri optimal zaman kəsiyində yerinə yetirmələrini əngəlləmişdir. Məhz bunun nəticəsində də müxtəlif obyektiv və subyektiv amillərin təsiri səbəbindən kənd təsərrüfatının milli iqtisadiyyatda payı azalmış, ölkə iqtisadiyyatına yatırılan məcmu investisiyaların strukturunda sahənin maraqları yetərincə təmin edilməmişdir.

Yuxarıda adı çəkilən amillər ölkəmizin ÜTT-yə daxil olma ərəfəsində kənd təsərrüfatının inkişafı baxımından özünəməxsus destruktiv təzahürlər doğura bilər ki, bu da ölkənin strateji maraqlarına, o cümlədən ərzaq təhlükəsizliyinin təmin edilməsinə mənfi təsir göstərə bilər.

Qeyd etmək lazımdır ki, son illərdə kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinə istiqamətlənmiş silsilə tədbirlər həyata keçirilməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2007-



ci il tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamına müvafiq olaraq aqrar sahədə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq fəaliyyət göstərən təsərrüfat subyektlərinin dotasiyalaşdırılması həyata keçirilir. Bundan əlavə, 21 avqust 2008-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi barədə" imzaladığı sərəncamı sahəyə dövlət yardımının dərinləşdirilməsində mühüm rol oynamışdır. Həmin sərəncama əsasən kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq məqsədilə buğda toxumu istehsalı ilə məşğul olan təsərrüfatlara istifadə üçün satın aldıqları yüksək reproduksiyalı buğda toxumunun satış qiymətinin 50 faizinə, buğda istehsalçılarına isə mineral gübrələrin satış qiymətinin 70 faizinə dövlət vəsaiti hesabına güzəşt verilir.

Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin proqram məqsədini özündə əks etdirir.

Lakin bütün bunlara baxmayaraq, kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzmilənməsi baxımından həllini gözləyən çoxsaylı problemlər hələ də mövcuddur. Bu problemlər istər qiymətin formalaşmasında, istər dövlət yardımlarının diferensiallaşdırılmasında, istər ərzaq bazarının tənzimlənməsində və istərsə də kənd təsərrüfatının investisiyalaşdırılmasında özünü büruzə verir. Məhz bu baxımdan yerinə yetirilən dissertasiya işində kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimənməsinin konseptual əsasları öz əksini tapmışdır. Bu səbəbdən yerinə yetirilən tədqiqat işi öz aktuallığı ilə fərqlənir.

**Problemin öyrənilmə vəziyyəti.** Kənd təərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi bütün dövrlərdə aktuallıq kəsb etmişdir. Əvvəlki təsərrüfatçılıq şəraitində bu proseslər mərkəzləşdirilmiş iqtisadi münasibətlər sisteminin hakim prinsiplərinə tabe etdirilmiş, əmtəə istehsalçılarının iqtisadi müstəqilliyi arxa plana çəkilmişdi. Keçid dövründə isə bazar özünütənzimlənməsinin prinsipləri daha çox həlledici mövqe tutmağa başlamışdır. Üstəlik, bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi mühüm strateji əhəmiyyətə malikdir. Adı çəkilən problemin tədqiqi ilə bağlı respublikamızın iqtisadçı alimlərindən Ə.Ə.Mahmudov, A.A.Nadirov, Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, G.Ə.Gənciyev, S.V.Salahov, İ.H.İbrahimov, H.B.Allahverdiyev, B.X.Ataşov, A.T.Əhmədov, R.Ə.Balayev, E.A.Quliyev, N.Ə.Cavadov, V.H.Abbasov, İ.V.Əhmədov, V.T.Əmrahov, M.C.Hüseynov, A.F.Abbasov, P.O.Farhadi, xarici ölkə alimlərindən A.M. Babaşkina, B.S. Balabanov, E.N. Borisenko, O.Q. Buryak, B.B. Kuznetsov, B.B. Rau və başqaları dəyərli elmi araşdırmalar aparmışlar. Lakin bütün bunlara baxmayaraq, aparılan tədqiqatların

kompleks xarakter daşımaması kənd təsərrüfatında iqtisadi münasibətlərin təkmilləşdirilməsi ilə bağlı vahid sistemli yanaşmanın mövcud olmamasına gətirib çıxarır. Bu baxımdan tərəfimizdən aparılan tədqiqatlar kifayət qədər kompleks xarakter daşıması ilə səciyyələnir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin elmi-nəzəri əsaslarını araşdırmaqdan, kənd təsərrüfatının iqtisadi vasitələrlə tənzimlənməsinin mövcud vəziyyətini təhlil etməkdən, kənd təsərrüfatında iqtisadi münasibətlərin təkmilləşdirilməsinin əsas istiqamətlərini müəyyənləşdirməsi ilə bağlı elmi cəhətdən əsaslandırılmış, təcrübi əhəmiyyətli təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- kənd təsərrüfatında iqtisadi münasibətlərin mahiyyəti və xarakterik xüsusiyyətləri araşdırılmışdır;
– kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin zəruriliyi, əsaslandırılmışdır;
– kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin funksiyaları, forma və metodları araşdırılmışdır;
– müasir şəraitdə kənd təsərrüfatının inkişafının mövcud fəaliyyətinə təsir edən amillər təsnifləşdirilmişdir;
– kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin mövcud vəziyyəti qiymətləndirilmişdir;
– kənd təsərrüfatında maliyyə münasibətlərinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir;
– kənd təsərrüfatında qiymət mexanizminin təkmilləşdirilməsi istiqamətləri işlənib hazırlanmışdır;
– kənd təsərrüfatında kooperasiya və inteqrasiya münasibətlərinin təkmilləşdirilməsinin iqtisadi münasibətlərin tənzimlənməsində rolu tədqiq edilmişdir.

**Tədqiqatın predmetini** respublikanın kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi ilə bağlı məsələlər təşkil edir.

**Tədqiqatın obyekti** kimi ölkənin kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təşkilatlar, həmçinin onlarla iqtisadi münasibətlərdə olan təsərrüfat subyektləri seçilmişlər.

**Tədqiqatın nəzəri və metedoloji əsaslarını** iqtisadçı alimlərin kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinə dair nəzəri müddəaları və tövsiyələri, mövzuya aid Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, həmçinin respublika hökuməti tərəfindən qəbul edilmiş normativ-hüquqi aktlar, eləcə də sosial-iqtisadi inkişafla bağlı dövlət proqramları təşkil edir.

Dissertasiya işində müşahidə, müqayisə, iqtisadi-statistik təhlil, sistemli



təhlil, dinamika və ekspert qiymətləndirilməsi üsullarından istifadə edilmişdir.

**Tədqiqat işinin məlumat mənbəyi** kimi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat və Sənaye Nazirliyinin müvafiq rəsmi məlumatlarından, aidiyyatı elmi-tədqiqat institutlarının, o cümlədən Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun əsərlərindən, aqrar sahədə fəaliyyət göstərən müəssisə və təşkilatların hesabatlarından, həmçinin internet resurslarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından qiymətləndirilmişdir;
- kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin spesifik xüsusiyyətləri tədqiq edilmişdir;
- kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin əmtəə istehsalçılarının gəlirlərinin artırılmasında rolu əsaslandırılmışdır;
- kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinə təsir edən amillər tədqiq edilmişdir;
- kooperasiya-inteqrasiya münasibətlərinin təkmilləşdirilməsinin kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinə təsiri müəyyənləşdirilmişdir;
- kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin aqrar sahənin biznes cəlbediciliyinin yaxşılaşdırılmasında rolu araşdırılmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işində işlənib hazırlanmış elmi-təcrübi təklif və tövsiyələr kənd təsərrüfatında iqtisadi münasibətlərin daha da səmərəli şəkildə qurulmasına xidmət edə bilər. Onlardan direktiv orqanlar tərəfindən xüsusi proqramlar və layihələr hazırlanarkən işçi material kimi də istifadə oluna bilər. Tədqiqatın nəticələrindən təsərrüfat subyektlərinin rəhbərləri və mütəxəssisləri, həmçinin sahibkarlar da faydalana bilərlər.

**Tədqiqatın nəticəsinin sınaqdan keçirilməsi və istifadə edilməsi.** Tədqiqatın nəticələri Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda, Azərbaycan Kooperasiya Universitetində, həmçinin respublikamızın digər elm və təhsil müəssisələrində keçirilən konfrans və seminarlarda məruzə edilmiş və bəyənilmişdir.

Dissertasiyanın əsas məzmununu əks etdirən çap əsərləri sırasında "Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsində qiymət siyasətinin rolu" ("Azərbaycan Aqrar elmi" jurnalı, Bakı, 2010, № 5), "Государственные целевые программы, национальные проекты и их значение в инвестиционном развитии аграрного сектора экономики" (Международный научно-методологический и практический, ежекварталь-

ный реферированный журнал. Тбилиси, 2010, № 2), “Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi istiqamətləri” (Az. ETKTİ və Tİ-nin 50 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları, Bakı, 2012), “Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin institusional əsasları” (“Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi” mövzusunda keçirilmiş beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 27-28 iyun 2012), “Kənd təsərrüfatında maliyyə münasibətlərinin təkmilləşdirilməsinin bəzi məsələləri” (“Kooperasiya” elmi-nəzəri jurnal, Bakı, 2012, №2), “Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin əsas yolları” (“Audit” jurnalı, Bakı, 2013, №3), «Пути совершенствования ценового механизма в сельском хозяйстве» (журнал «Аграрная наука», Москва, 2013, №5) adlı məqalələri göstərmək olar.

Dissertasiya işinin əsas nəticələri Balakən Rayon İcra Hakimiyyəti və Lənkəran Regional Aqrar Elm Mərkəzi tərəfindən tətbiq üçün qəbul edilmişdir (29 noyabr 2010-cu il 630 saylı və 01 aprel 2013-cü il tarixli 29 saylı arayışlar).

**Tədqiqat nəticəsində dərc edilmiş məqalələr.** Tədqiqatın gedişində onun əsas nəticələrini əks etdirən ümumi həcmi 8,8 ç.v. olan 19 adda elmi məqalə və tezis dərc edilmişdir.

**Dissertasiya işinin həcmi, quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən ibarət olub 152 səhifədə yazılmışdır. Burada mətndaxili 10 cədvəl, 3 sxem və 1 şəkil verilmişdir. İşin axırında 95 adda istifadə olunmuş ədəbiyyat göstərilmişdir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı, problemin öyrənilməsi vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası şərh olunmuşdur.

**“Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin elmi-nəzəri əsasları”** adlanan birinci fəsildə kənd təsərrüfatında iqtisadi münasibətlərin səciyyəvi xüsusiyyətləri araşdırılmış, bu münasibətlərin tənzimlənməsi zəruriliyi əsaslandırılmış, aqrar sahədə iqtisadi münasibətlərin tənzimlənməsinin forma və metodları tədqiq edilmişdir.

Məlum olduğu kimi, qida məhsullarının istehsalı bütün dövrlərdə əhalinin yaşayışının başlıca şərti hesab olunmuşdur. Məhz bunun nəticəsidir ki, bütün iqtisadi sistemlərdə kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan sahələr iqtisadiyyatda və bütövlükdə cəmiyyətdə mühüm funksiyalar yerinə yetirir. Müasir şəraitdə ərzaq və qida məhsullarının istehsalı əsas etibarilə kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan emal sənayesi sektorunda həyata keçirilir. Odur ki, kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan sahələr əhalinin ərzaq məhsullarına və



sənayenin kənd təsərrüfatı xamalına olan ehtiyaclarının ödənilməsində əhəmiyyətli rol oynayır. Bu proses istər əvvəlki mərkəzləşdirilmiş təsərrüfatçılıq sistemində, iqtisadi münasibətlər sistemində, istərsə də bazar iqtisadi sistemində öz aktuallığını qoruyub saxlamaqdadır. Qloballaşma proseslərinin dərinləşməsi və eləcə də ölkələr arasındakı iqtisadi sərhədlərin liberallaşdırılması son nəticədə beynəlxalq münasibətlər sistemində ərzaq problemini kifayət qədər aktuallaşdırımışdır. Təbii ki, müasir şəraitdə ərzaq probleminin kəskinləşməsi ilk növbədə kənd təsərrüfatının inkişaf problemlərinin aktuallaşmasına, bu sahənin strateji əhəmiyyətinin daha dərindən dərk edilməsinə gətirib çıxarmışdır.

Kənd təsərrüfatında iqtisadi münasibətlər maliyyə-iqtisadi fəaliyyət baxımından mülkiyyət mənsubiyyətindən asılı olmayaraq təsərrüfat subyektlərinin bir-biri ilə qarşılıqlı əlaqələri, eləcə də dövlətin təsərrüfat subyektləri ilə, təsərrüfat subyektlərinin emal, xidmət və digər qurumlarla və ən başlıcası kənd təsərrüfatında əmtəə istehsalçılarının istehlakçılarla qarşılıqlı münasibətlərinin məcmusunu xarakterizə edir. Kənd təsərrüfatında iqtisadi münasibətlər aqrar münasibətlərin mühüm tərkib hissəsi kimi çıxış edir.

Müasir şəraitdə kənd təsərrüfatında iqtisadi münasibətlər bazar təsərrüfatçılıq sisteminin spesifik xüsusiyyətlərilə səciyyələnir. Hal-hazırda kənd təsərrüfatında iqtisadi münasibətləri ilk növbədə xüsusi mülkiyyət, azad rəqabət və mülkiyyət mənsubiyyətindən asılı olmayaraq təsərrüfat subyektlərinin iqtisadi müstəqilliyi şərtləndirir. Aparılan arışdırmalar göstərir ki, bazar təsərrüfatçılıq sisteminə keçidlə əlaqədar kənd təsərrüfatında həyata keçirilən transformasiya yönümlü dəyişikliklər və eləcə də aqrar islahatlar, torpaq islahatları prosesi kənd təsərrüfatında iqtisadi münasibətlər sisteminə həlledici dərəcədə təsir göstərmişdir. Kənd təsərrüfatında iqtisadi münasibətlər sisteminin keyfiyyətcə yeniləşməsinə ilk növbədə aqrar və torpaq islahatları əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Artıq kənd təsərrüfatında fəaliyyət göstərən təsərrüfat subyektlərini bütövlükdə çoxmülkiyyətli təsərrüfat münasibətləri səciyyələndirir. Hal-hazırda ölkənin aqrar ərzaq bazarını əmtəələrlə təchiz edən təsərrüfat subyektlərinin mülkiyyət münasibətləri baxımından xarakterizə etdikdə belə qənaətə gəlmək olar ki, ilk növbədə fiziki şəxs statuslu ailə təsərrüfatları, fərdi sahibkarlar, kiçik istehsal kooperativləri, kiçik müəssisələr və digər bu kimi qurumlar bütövlükdə kənd təsərrüfatında iqtisadi münasibətlərin ən mühüm daşıyıcıları kimi çıxış edirlər. Müasir şəraitdə kənd təsərrüfatında iqtisadi münasibətlər bütövlükdə bazar təsərrüfatçılıq sisteminin prinsiplərinə və qanunauyğunluqlarına tam şəkildə tabe etdirilmişdir.

İstər nəzəri və istərsə də təcrübi tədqiqatlar, eləcə də inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında iqtisadi münasibətlər iqtisadiyyatın digər sahələrindəki mövcud münasibətlər sistemindən kəskin və

köklü şəkildə fərqlənir. Müasir şəraitdə kənd təsərrüfatında iqtisadi münasibətlər daha çox maliyyə münasibətləri, qiymət münasibətləri, vergi münasibətləri, satış və idarəetmə münasibətləri fövqündə özünü büruzə verir. Kənd təsərrüfatında maliyyə münasibətləri ilk növbədə kənd təsərrüfatında əmtəə istehsalçılarına dövlət büdcəsindən subsidiyaların verilməsi və onların kreditləşdirilməsi və investisiyalaşdırılması prosesində özünü əks etdirir. Kənd təsərrüfatında qiymət münasibətləri də iqtisadi münasibətlərin vacib elementi kimi çıxış edir və bazar özünütənzimləmə prosesinin mühüm tərkib hissəsi kimi səciyyələnir. Lakin bununla belə, kənd təsərrüfatında iqtisadi münasibətlər sistemində dövlət tərəfindən həyata keçirilən tənzimləmə tədbirləri də əhəmiyyətli rol oynayır.

Kənd təsərrüfatında iqtisadi münasibətlər sistemində idarəetmə amili də əhəmiyyətli rola malikdir. İdarəetmə amili ilk növbədə marketinq və əlaqələndirici idarəetmə proseslərini özündə əks etdirir. Məhz bu sistemin kifayət qədər düzgün qurulması kənd təsərrüfatında daxili və xarici bazarda yerli əmtəə istehsalçılarının payının artımına gətirib çıxara bilər ki, bu da son nəticədə kənd təsərrüfatında əmtəə istehsalçılarının iqtisadi baxımdan daha çox mənfəət əldə etmək imkanlarını şərtləndirir.

İqtisadi münasibətlərin tənzimlənməsi ideyası məhz ötən əsrin 30-cu illərində yaranan böhranlı tendensiyaların qarşısının alınmasında keynsçilik nəzəriyyəsindən müvəffəqiyyətlə istifadə ilə sıx bağlı olmuşdur. Təhlil göstərir ki, XX əsrin sonlarında da iqtisadi nəzəriyyənin inkişafında Keynsin ardıcılları, o cümlədən Ç.Qelbert və P.Samuelsonun xidmətləri çox olmuşdur. Adı çəkilən müəlliflər keynsçilik nəzəriyyəsini iqtisadi münasibətlərin tənzimlənməsi sferasında daha da inkişaf etdirərək belə qənaətə gəlmişlər ki, təkcə qiymətlər və istehsal xərcləri deyil, həmçinin istehlak qabiliyyətli tələb də idarəetmənin obyekti olmalıdır. Təbii ki, bütün bunlar iqtisadi münasibətlərin tənzimlənməsində dövlətin fəaliyyətinin və rolunun genişləndirilməsi ilə yanaşı, eyni zamanda sosial münasibətlər sisteminə də güclü təsir göstərmişdir.

Makro səviyyədə iqtisadi münasibətlərin tənzimlənməsi iqtisadiyyatın sahə quruluşundan da çox asılıdır. Bir sıra hallarda iqtisadiyyatın sahə quruluşu və ayrı-ayrı xüsusi çəkiyə malik olan sahələrdə bu tənzimlənmənin özünəməxsus üstünlükləri mövcuddur. İqtisadiyyatın azgəlirli, lakin bununla belə mühüm stateji əhəmiyyət daşıyan sahələrindən biri kimi kənd təsərrüfatında qarşılıqlı münasibətlərin tənzimlənməsi, xüsusilə böyük əhəmiyyətə malikdir. Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsində başlıca məqsəd ölkənin stateji maraqlarının qorunması ilə sıx bağlıdır.

Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsini obyektiv zərurətə çevirən amilləri əsas etibarəilə iki qrupda təsnifləşdirmək mümkündür:



– kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətlərə malik olması ilə bağlı;
– bazar mexanizminin qeyri-təkmil xarakter daşıması və aqrar bazar fəaliyyətinin ayrı-ayrı aspektlərinin tənzimlənməsi ilə bağlı.

Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin zəruriliyi həm də müxtəlif mülkiyyət mənsublu təsərrüfat qurumlarının sərəncamında olan torpaq sahələrinin məhdudluğu ilə şərtlənir. Məlum olduğu kimi, torpaq sahəsinin məhdudluğu növbəli əkin sistemini səmərəli şəkildə tətbiq etməyə, aqrotexniki tədbirləri optimal zaman kəsiyində yerinə yetirməyə imkan vermir. Məhz belə bir şəraitdə kənd təsərrüfatında əmtəə istehsalçılarının bir-biri ilə qarşılıqlı kooperasiya və inteqrasiya əlaqələrinə girməsini vacib reallığa çevrilir.

Apardığımız araşdırmalar göstərir ki, kənd təsərrüfatında ekoloji təmiz istehsal prosesinin qurulması üçün iqtisadi münasibətlərin də kefiyyətcə yeniləşdirilməsi, daha doğrusu təkmilləşdirilməsi tələb olunur. İlk növbədə sığorta sisteminə yenidən baxılması vacibdir. Mövcud sığorta sistemi kənd təsərrüfatında əmtəə istehsalçılarının maraqlarının reallaşdırılmasına hələ ki, stimul yaratmır.

İqtisadi münasibətlərin tənzimlənməsi əslində bazar təsərrüfatçılıq sisteminin klassik və dominant mövqe tutan mexanizmlərinə elə bir xələl gətirmədən həyata keçirilir və istər istehsalçıların, istərsə də istehlakçıların maraqlarını uzlaşdırır. Dövlət tərəfindən həyata keçirilən tənzimləmə tədbirləri ilk növbədə istehsalçıların iqtisadi maraqlarının təmin edilməsinə, istehlakçıların isə sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir. Bu baxımdan cəmiyyətdə mövcud olan ekoloji və sosial problemlərin tarazlı şəkildə həllinin təmin edilməsi, bazar mexanizminin formalaşdırılması məqsədilə normal şəraitin yaradılmasına istiqamətlənmiş tədbirlər həyata keçirilməlidir. Bu tədbirlər bazar konyunkturunda baş verən dəyişikliklərin neytrallaşdırılmasına və təsərrüfat subyektlərinin fəaliyyətinin dövlət tənzimlənməsinə istiqamətlənmiş vasitələrlə səciyyələnir. Bu vasitələr içərisində ilk növbədə proqnozlaşdırma, planlaşdırma, maliyyələşdirmə, büdcə siyasəti, eləcə də uçot, nəzarət və digər funksiyaları qeyd etmək lazımdır.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas məqsəd ilk növbədə daxili bazarı yerli istehsal hesabına təmin etməkdən ibarətdir. Bu baxımdan iqtisadi münasibətlərin tənzimlənməsi xüsusilə ön plana çəkilir. Kənd təsərrüfatı məhsulları bazarının formalaşdırılmasına yönəlmiş tənzimləmə tədbirlərinin həyata keçirilməsi zamanı ilk növbədə qiymətlərin tarazlaşdırılması, kənd təsərrüfatında əmtəə istehsalçılarının gəlirlərinin artırılması, istər daxili və istərsə də xarici bazarlarda kənd təsərrüfatı məhsullarının hərəkətinin gücləndirilməsi başlıca vasitələr kimi çıxış edir. Bundan əlavə, pul-kredit və vergi siyasəti də iqtisadi münasibətlərin tənzimlənməsində önəmli rola malikdir. Qloballaşma proseslərinin

güclənməsi daxili bazara əmtəələrin sərbəst hərəkətini özündə əks etdirir və bu zaman bir sıra hallarda idxal kanallarında dempinq təzahürləri özünü büruzə verir. Məhz bu baxımdan iqtisadi münasibətlərin tənzimlənməsi sistemində xarici iqtisadi fəaliyyətin, o cümlədən idxal fəaliyyətinin tənzimlənməsi kifayət qədər geniş yayılmışdır və bu tədbirlərdə Ümumdünya Ticarət Təşkilatının şərtləri çərçivəsində antidempinq tənzimləməsinin xüsusi rolu vardır. Kənd təsərrüfatında əmtəə istehsalçılarının intensiv təsərrüfat fəaliyyəti həyata keçirməsinə dövlətin yardımları da mühüm rol oynayır. Bu baxımdan dövlət elmi-informasiya təminatını öz üzərinə götürür və kənd təsərrüfatında əmtəə istehsalçılarını daxili və xarici bazar konyunkturunda baş verən dəyişikliklərlə kifayət qədər operativ və etibarlı şəkildə məlumatlandırır.

İqtisadi ədəbiyyatlarda bir qayda olaraq tənzimlənmənin forma və üsul mexanizmi, vasitələri anlayışlarından kifayət qədər geniş şəkildə istifadə edilir. Kənd təsərrüfatında tənzimləmə prosesləri əsasən birbaşa və dolayı formalarda həyata keçirilir. Birbaşa tənzimləmə əsas etibarilə, yuxarıda qeyd etdiyimiz kimi, dövlətin idarəetmə, nəzarət və kvotalar sistemi vasitəsilə reallaşdırılır. Təbii ki, bu zaman dövlət standartlarının tətbiqi və digər bu kimi məsələlər də nəzərə alınmalıdır. Dövlət tənzimlənməsinin formaları içərisində dolayı tənzimləmə prosesləri də mühüm önəmə malikdir. Bu, ilk növbədə iqtisadi tənzimləmə proseslərini özündə əks etdirir. Tənzimləmənin metodları dedikdə isə, ilk növbədə tənzimləmə prosesinin həyata keçirilməsi üçün istifadə edilən üsul və vasitələrin məcmusu başa düşülür.

Kənd təsərrüfatında tənzimlənmənin metodları əsasən hüquqi, inzibati, sosial və iqtisadi aspektlərdə təsnifləşdirilir. Tənzimləmənin forma və metodldarı bir qayda olaraq istehsal prosesini, eləcə də sosial və digər proseslərə təsir mexanizmini özündə əks etdirir. Dövlət tənzimlənməsinin birbaşa formaları əsas etibarilə qanunvericilik və hüquqi təminatlar sistemi vasitəsilə reallaşdırılır. Bu proses həm də təsərrüfat subyektlərinin davranışının reqlamentləşdirilməsində önəmli rola malikdir. Dolayı tənzimləmə vasitələri isə ilk növbədə bank kreditlərinə görə faiz dərəcələrinin müəyyənləşdirilməsi, eləcə də qiymətlərin və tariflərin səviyyəsi, vergi dərəcələri, amortizasiya normaları və sairlə ifadə olunur.

Tədqiqat işinin ikinci fəsli **"Kənd təsərrüfatının iqtisadi vasitələrlə tənzimlənməsinin mövcud vəziyyətinin qiymətləndirilməsi"** adlanır. Burada mövcud şəraitdə kənd təsərrüfatının inkişafına təsir edən amillər üzə çıxarılmış, bu sahədə iqtisadi münasibətlərin tənzimlənməsinin mövcud durumu təhlil edilmişdir.

Müasir şəraitdə cəmiyyətin ən önəmli problemlərindən biri yerli əhalinin etibarlı ərzaq təminatı hesab edilir. Ərzaq təminatının yaxşılaşdırılması dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biri



hesab edilir. Ərzaq təminatının yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi ilk növbədə dövlətin iqtisadi imkanlarından, eləcə də istehsal potensialından səmərəli istifadə edilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Dövlət tərəfindən həyata keçirilən aqrar siyasətin başlıca məqsədi ölkənin ərzaq təhlükəsizliyini təmin etmək, kənd təsərrüfatının dinamik inkişafına nail olmaq və eləcə də kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin artırılmasını təmin etməkdən ibarətdir. Kənd təsərrüfatının özünəməxsus spesifik xüsusiyyətləri bazar münasibətləri şəraitində dövlətin aqrar siyasətinin prioritetlərini daha aktiv şəkildə reallaşdırılmasını obyektiv zərurətə çevirir. Məhz bu baxımdan kənd təsərrüfatı bazar özünütənzimləmə mexanizminin neqativ təzahürlərinə qarşı yetərli reaksiya göstərmək iqtidarında deyildir.

Kənd təsərrüfatının sahəvi xüsusiyyətləri, o cümlədən təbii-iqlim şəraitindən asılılığı, eləcə də azgəlirliliyi nəticə etibarilə bu sahədə fəaliyyət göstərən əmtəə istehsalçılarının yüksək səmərə əldə etmək imkanlarını xeyli məhdudlaşdırır. Azərbaycan Respublikasının təbii-iqlim şəraiti, iqtisadi və əmək potensialı mahiyyət etibarilə uzun illər kənd təsərrüfatı istehsalı üzrə ixtisaslaşmasında həlledici rol oynamışdır. Tarixən respublikamızın dünyada mövcud olan on bir təbii iqlim qurşağından doqquzunu özündə birləşdirməsi nəticə etibarilə kənd təsərrüfatının inkişafı üçün münbit şərait yaratmışdır.

Azərbaycanın coğrafi xüsusiyyətlərinin müxtəlifliyi, eləcə də flora və faunası, zəngin təbii ehtiyatlara malik olması, ən başlıcası qədim əkinçilik ənənələrinə malik olması, bütövlükdə kənd təsərrüfatının əsas sahələrinin inkişaf etdirilməsinə zaman-zaman güclü təkan vermişdir. Belə ki, Azərbaycanda tarixən taxılçılığın, üzümçülüyün, meyvəçiliyin, tərəvəzçiliyin və heyvandarlığın inkişafı üçün yetərli baza mövcud olmuş və bu bazanın inkişaf etdirilməsi Azərbaycandan xarici ölkələrə məhsulların ixracını həyata keçirməyə imkan yaratmışdır. Bundan əlavə, Azərbaycanın coğrafi baxımdan yerləşmə xüsusiyyətləri də bütövlükdə kənd təsərrüfatı məhsullarının ticarətinin genişləndirilməsinə müsbət təsir göstərmişdir. Coğrafi baxımdan daxili və xarici bazarların kəsişmə nöqtəsində yerləşməsi, eləcə də nəqliyyat–kommunikasiya sahələrinin inkişaf etdirilməsi Azərbaycanın kənd təsərrüfatının inkişaf etdirilməsində, eləcə də həmin məhsulların xarici bazara çıxarılmasında mühüm rol oynamışdır. Təkcə bir faktı qeyd etmək lazımdır ki, Azərbaycan hələ XX əsrin sonlarında digər şərq ölkələri ilə müqayisədə ilk dəfə olaraq 1 mln tondan çox taxıl istehsal etmiş və adambaşına illik məhsul istehsalı 600 kq-a qədər təşkil etmişdir. Təbii ki, bütün bunlar respublikamızda taxılçılığın və bütövlükdə kənd təsərrüfatının digər sahələrinin inkişafı üçün kifayət qədər potensial imkanların olduğunu sübut edir.

Kənd təsərrüfatının dinamik inkişafının təmin edilməsi ilk növbədə

əmtəə istehsalçılarının maliyyə-təsərrüfat fəaliyyətinin gəlirliyinin artırılmasından bilavasitə asılıdır. Kənd təsərrüfatında maliyyə-təsərrüfat fəaliyyətinin gəlirliyinin artırılması isə öz növbəsində sahədə geniş təkrar istehsal prosesinin uğurla həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Bu baxımdan kənd təsərrüfatı müəssisələrinin 2000-2012-ci illərdə aid dövrdəki maliyyə nəticələri cədvəl 1-də öz əksini tapmışdır.

Fikrimizcə, kənd təsərrüfatını yalnız məhsul istehsalı həyata keçirən bir sahə kimi səciyyələndirmək yetərli deyildir. Çünki iqtisadiyyatın bu seqmenti çox¬funksiyalı mürəkkəb bir sistemdir.

Cədvəl 1

Azərbaycan Respublikasında kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nəticələri

| Göstəricilər | 2000 | 2005 | 2009 | 2010 | 2012 |
|---|---|---|---|---|---|
| Təsərrüfatların sayı, vahid | 2158 | 1782 | 2392 | 2043 | 1771 |
| Ondan ziyanla işləyənlər | 1132 | 203 | 213 | 174 | 109 |
| %-lə | 52,5 | 11,4 | 8,9 | 8,5 | 6,1 |
| Ümumi gəlir (fak. qiym.) min manat | 1118 | 14757 | 67149 | 71604 | 86045 |
| Balans gəliri, min manat | -3315 | 5892 | 34396 | 27658 | 48200 |
| Bütün maliyyə-təsərrüfat fəaliyyəti üzrə rentabellik, %-lə | -19,2 | 9,1 | 21,4 | 16,7 | 19,2 |
| Kənd təsərrüfatı məhsullarının satışından əldə edilən gəlir, min. manat | -2515 | 5872 | 29089 | 22286 | 44252 |
| o cümlədən: bitkiçilikdə | -616 | 2769 | 4708 | 8855 | 14609 |
| heyvandarlıqda | -1753 | 3117 | 24061 | 13021 | 29036 |
| Kənd təsərrüfatı məhsullarının rentabeliyi, %-lə | -14,6 | 9,0 | 18,1 | 13,4 | 17,7 |
| o cümlədən: bitkiçilikdə | -7,0 | 41,5 | 17,8 | 30,0 | 35,5 |
| heyvandarlıqda | -23,2 | 5,4 | 19,7 | 10,5 | 15,1 |

Kənd təsərrüfatında əmtəə istehsalçılarının təsərrüfat fəaliyyətinin gəlirliyinin yüksəldilməsi onların maddi-texniki bazasının yaxşılaşdırılmasından da bilavasitə asılıdır. Kənd təsərrüfatında maddi-texniki resurslara olan tələbatın ödənilməsi maliyyə nəticələrinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Bundan əlavə, kənd təsərrüfatında innovasiyalı istehsal prosesinin təşkili üçün də maddi-texniki bazanın yaxşılaşdırılması vacib şərtlərdən biridir. Kənd təsərrüfatında innovasiyalı məhsul istehsalının həyata keçirilməsi hazırda qarşıda duran ən mühüm vəzifələrdən biridir. İnnovasiyalı məhsul istehsalının həyata keçirilməsi hesabına istehsalın intensivləşdirilməsini təmin etmək, eləcə də aqrotexniki tədbirləri optimal zaman kəsiyində və səmərəli şəkildə həyata keçirmək mümkün olur. Təhlil göstərir ki, respublikamız hal-hazırda Şərqi Avropa ölkələri ilə, eləcə də inkişaf etmiş ölkələr ilə müqayisədə kənd təsərrüfatında elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalda tətbiqi baxımından kifayət qədər geridə qalır. Məhz bunun nəticəsidir ki, respublikamızın kənd təsərrüfatında məhsuldarlığın səviyyəsi inkişaf etmiş ölkələr ilə müqayisədə



əhəmiyyətli dərəcədə aşağıdır. Bu isə kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi imkanlarını əngəlləyir.

Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi sahəyə investisiya qoyuluşunun stimullaşdırılmasından bilavasitə asılıdır. Sahəyə investisiya qoyuluşunun stimullaşdırılması aqrar ərzaq bazarlarına əmtəə təkliflərinin genişləndirilməsi deməkdir. Bu da aqrar ərzaq bazarlarının idxal kanallarından asılılığının aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Kənd təsərrüfatına yatırılan investisiyalar haqqında məlumat cədvəl 2-də verilmişdir.

Təhlil göstərir ki, 2012-ci ildə iqtisadiyyata yönəldilən investisiyanın strukturunda ən yüksək xüsusi çəkini sənaye (39,2%), ən aşağı xüsusi çəkini isə tikinti (3,2%) və kənd təsərrüfatı (4,2%) təşkil etmişdir. Bu isə aqrar sahədə davamlı inkişafın təmin olunmasına lazımi təkan vermir.

Cədvəl 2

Azərbaycan Respublikası iqtisadiyyatının sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın strukturu, faizlə

| İllər | Cəmi | Sənaye | Kənd təsərrüfatı | Tikinti | Nəqliyyat, informasiya və rabitə | Digər sahələr |
|---|---|---|---|---|---|---|
| 1995 | 100 | 46,4 | 1,9 | 0,3 | 5,3 | 46,1 |
| 2000 | 100 | 69,2 | 0,7 | 0,3 | 9,2 | 20,5 |
| 2005 | 100 | 72,4 | 0,7 | 0,8 | 11,7 | 14,4 |
| 2006 | 100 | 68,9 | 1,0 | 0,2 | 13,5 | 16,4 |
| 2007 | 100 | 61,4 | 3,3 | 0,1 | 12,4 | 22,8 |
| 2008 | 100 | 42,7 | 3,4 | 0,7 | 21,8 | 31,4 |
| 2009 | 100 | 41,8 | 3,5 | 0,4 | 24,0 | 30,3 |
| 2010 | 100 | 43,2 | 4,4 | 1,2 | 26,8 | 24,4 |
| 2011 | 100 | 41,9 | 3,4 | 1,8 | 22,1 | 30,8 |
| 2012 | 100 | 39,2 | 4,2 | 3,2 | 19,1 | 34,3 |

Hal-hazırda kənd təsərrüfatında əmtəə istehsalçılarının güzəştli şərtlərlə kreditləşdirilməsində əhəmiyyətli mənbə kimi İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fondu mühüm rol oynayır. Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə respublikamızın kənd təsərrüfatına və o cümlədən emal sənayesinə iri həcmli kreditlərin verilməsi davam etdirilir. Bu kreditləşdirmə sistemi kənd təsərrüfatında istehsal prosesinin genişləndirilməsinə və iqtisadi səmərəliliyin yüksəldilməsinə əlverişli şərait yaradır. Bundan əlavə, regionlarda quşçuluq təsərrüfatlarının, broyler fabriklərinin inkişaf etdirilməsinə, eləcə də ət və süd emalı müəssisələrinin, iri soyuducu anbarların yaradılmasına xüsusi diqqət yetirilir.

Hal-hazırda prioritet vəzifə Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına regionlarda quşçuluq müəssisələrinin yaradılması və bu baxımdan quş ətinə və yumurtaya olan tələbatın yerli istehsal hesabına ödənilməsinə

şərait yaratmaqdan ibarətdir. Təbii ki, regionlarda quşçuluq və broyler müəssisələrinin yaradılması hesabına eyni zamanda region əhalisinin iş yeri ilə təminatı və səmərəli məşğulluğunu da təmin etmək mümkündür. Bütün bunlar kənd əhalisinin gəlirlərinin artırılmasına da əlverişli şərait yaradır. Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına kənd təsərrüfatına və onun emal bölməsinə ayrılan kreditlərin məbləği ilbəil artmaqdadır.

Qloballaşma şəraitində ölkəmizin ÜTT-yə daxil olmaga hazırlaşdığı bir dövrdə kənd təsərrüfatının davamlı inkişafına nail olunması iqtisadi münasibətlərin tənzimlənməsindən bilavasitə asılıdır. Sahənin davamlı inkişafının təmin edilməsi üçün ilk növbədə əmtəə istehsalçılarına dəstək göstərilməlidir. Yuxarıda qeyd etdiyimiz kimi, kənd təsərrüfatı əmtəə istehsalçılarına dövlət yardımları göstərilir. Yaxşı olardı ki, dövlət yardımlarının göstərilməsində diferensiallaşma prosesinə və ünvanlığın təmin edilməsinə xüsusi diqqət yetirilsin. Məhz belə bir şəraitdə kənd təsərrüfatında məhsuldarlığın səviyyəsinin yüksəldilməsinə nail olmaq və eyni zamanda kənd təsərrüfatında əmtəə istehsalçılarının xarici bazara çıxış imkanlarını stimullaşdırmaq mümkün olar.

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinə istiqamətlənmiş tədbirlər istehsalın stimullaşdırılmasında da əhəmiyyətli rol oynayır. İstehsalın stimullaşdırılmasına istiqamətlənmiş tədbirlərin gözlənilən səmərəni verməsi üçün ilk növbədə daxili bazarın qorunmasına da xüsusi diqqət yetirilməlidir. Daxili bazarın qorunmasına istiqamətlənmiş tədbirlər kənd təsərrüfatında əmtəə istehsalçılarının bazar konyunkturundan asılılığının azaldılmasında əhəmiyyətli rol oynayır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinə diqqətin artırılması istehsalın intensivləşdirilməsi ilə müşayiət olunmalıdır. İntensiv texnologiyaların tətbiq edilməsi, eləcə də müasir texnologiyalar əsasında kənd təsərrüfatında və emal sənayesinin modernləşdirilməsi iqtisadi münasibətlərin tənzimlənməsinin ən mühüm prioritet istiqamətlərindən biri hesab olunmalıdır.

Yaxın perspektivdə kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi yolları **üçüncü fəslin** tədqiqat obyekti olmuşdur. Kənd təsərrüfatında səmərəli geniş təkrar istehsal prosesinin qurulması ilk növbədə kapital resurslarına olan ehtiyacların ödənilməsindən bilavasitə asılıdır. Kənd təsərrüfatında əmtəə istehsalçılarının kapital ehtiyaclarının ödənilməsi bu sahənin maliyyələşdirilməsi və eləcə də bu sahədə maliyyə münasibətlərinin düzgün qurulması ilə sıx bağlıdır. Odur ki, maliyyə münasibətləri bütövlükdə bazar mexanizminin ayrılmaz tərkib hissəsini təşkil etməklə dövlətin iqtisadi siyasətinin həlledici vasitəsi kimi çıxış edir, iqtisadiyyatın az gəlirli və strateji sahəsi olan kənd təsərrüfatında mühüm əhəmiyyətə malikdir. Kənd təsərrüfatında davamlı inkişafı və bütövlükdə aqrar sferanın müvəffəqiyyətini düzgün maliyyə siyasəti qurmadan təsəvvür



etmək mümkün deyildir. Maliyyə siyasəti və maliyyə münasibətlərinin təkmilləşdirilməsi iqtisadi münasibətlərin tənzimlənməsinin, eləcə də aqrar siyasətin ən mühüm tərkib hissəsidir.

Maliyyə münasibətləri bütövlükdə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq hər bir təsərrüfat subyektinin təsərrüfat və kommersiya fəaliyyətini hərtərəfli xarakterizə edən başlıca kateqoriya kimi çıxış edir. İqtisadiyyatın sahəvi quruluşundan və dövlətin iqtisadi siyasətinin tipindən və xarakterindən asılı olmayaraq bütün hallarda təsərrüfat subyektləri, daha doğrusu mikro iqtisadi səviyyədə maliyyə münasibətlərini xarakterizə edən kateqoriyalara ilk növbədə məhsulun maya dəyərini, məhsulun satış qiymətini, məhsul satışından əldə edilən pul gəlirini, ümumi gəliri, xalis gəliri, mənfəəti, dövriyyə vəsaitlərini, amortizasiya və digər bu kimi elementləri aid etmək olar. Əslində adı çəkilən iqtisadi kateqoriyalar son nəticədə mikro iqtisadiyyatın ən mühüm elementlərindən biri hesab edilir. Lakin nəzərə almaq lazımdır ki, iqtisadiyyatın ən mühüm və strateji əhəmiyyətli sahəsi kimi kənd təsərrüfatında mikro maliyyələşmə rejimi demək olar ki, əmtəə istehsalçılarının daxili imkanlarından asılı olmur. Daha doğrusu, istər maya dəyərinin, istərsə də xalis gəlirin səviyyəsi baxımından yanaşdıqda kənd təsərrüfatında əmtəə istehsalçıları sərbəst şəkildə bir sıra hallarda geniş təkrar istehsal prosesini həyata keçirə bilmirlər və bu baxımdan onların kapital resurslarına olan ehtiyaclarının ödənilməsi problem olaraq qalmaqdadır.

Qərbi Avropa ölkələrinin, o cümlədən Avropa İqtisadi Birliyinə daxil olan ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında əmtəə istehsalçılarının təbii fəlakətlərdən itkilərinin kompensasiya edilməsi, əlverişsiz təbii-iqlim hadisələrindən əmlakın sığortalanması və eləcə də istehsal edilən məhsulun sığortalanmasına dair tədbirlər kifayət qədər geniş yayılmış, dövlətin sığorta fondları bu işdə aktiv rol oynayır. Dövlətin sərəncamında olan sığorta fondları bir qayda olaraq kənd təsərrüfatında risklərin maliyyələşdirilməsinə xidmət edirlər.

Aqrar-sənaye istehsalının iqtisadi vasitələrlə tənzimlənməsinin ən mühüm tərkib elementlərindən biri qiymət siyasəti hesab edilir. Bazar münasibətləri şəraitində əmtəələrin qiymətləri əsas etibarilə bazar konyunkturunda baş verən dəyişikliklərlə sıx əlaqədardır və onların nəticəsində formalaşır. Bununla belə, qiymətlərin əmələ gəlməsini səciyyələndirən bir sıra amillər mövcuddur ki, bunlara ilk növbədə istehsal məsrəflərini, bazar seqmentlərində baş verən dəyişiklikləri, əmtəələrin hərəkət dövrünü və onun xarakterini, əmtəə bazarında tələb və təklifin potensial həcmlərini, dövlət tərəfindən istehsal prosesinə təsir göstərən pul-kredit siyasətini, əhalinin istehlak proseslərinə təsir göstərən sosial siyasəti, bazarın inhisarlaşma dərəcəsini, əmtəələrin hərəkətinin təşkili şərtlərini və ən nəhayət, dünya bazarında baş verən konyunktur dalğalanmalarını aid etmək lazımdır.

Qiymət münasibətlərinin bütövlükdə ərzaq təminatına təsiri, eləcə də qiymət-əmələgətirici amilləri təqdim edilən sxemdə görmək mümkündür. Aparılan arşıdrmalar göstərir ki, kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsinə istifadə edilən istehsal-texniki təyinatlı avadanlıqların, enerji daşıyıcılarının qiymət və tarifləri əhəmiyyətli təsir göstərir. Xüsusilə təbii inhisarçıların diktə etdikləri qiymət və tarifləri kənd təsərrüfatında əmtəə istehsalçılarının maliyyə vəziyyətinə təsirsiz ötüşmür. Kənd təsərrüfatında əmtəə istehsalçıları ilə inhisarçı sahələr arasındakı münasibətlərin tənzimlənməsinə dövlət iqtisadi təsir vasitələrilə xüsusi müdaxilə etməlidir. Bu müdaxilə zamanı ilk növbədə başlıca məqsəd daxili ərzaq bazarındakı qiymətlərin səviyyəsində sabitliyə nail olunması təşkil etməlidir. Bu qəbildən olan meyllər ərzaq bazarında qiymət səviyyələrinin yüksəlməsini şərtləndirir.

Beləliklə, kənd təsərrüfatında iqtisadi münasibətlərinin tənzimlənməsinin tərkib hissəsi kimi qiymət mexanizminin təkmilləşdirilməsinin strateji əhəmiyyətli bəzi ərzaq məhsullarına tətbiq edilə biləcək təminatlı qiymətlər sistemindən istifadə və onun inkişafının təmin edilməsinə xeyli təsiri ola bilər. İstər təminatlı və istərsə də məqsədli qiymətlər sistemindən istifadə edilməsi hesabına ərzaq bazarında tədarük və əmtəə müdaxilələrinin tətbiq edilməsinə əlverişli şərait yaranır ki, bütün bunlar da nəticə etibarilə əhalinin ərzaq məhsullarına olan tələbatının əlyetərli qiy¬mətlərlə əldə edilməsinə şərait yaradır.




Şək. Məhsulların qiymətlərini formalaşdıran amillər



Bundan əlavə, təminatlı qiymətlər kənd təsərrüfatında əmtəə istehsalçılarının əmtəə-təsərrüfat fəaliyyətlərinin gəlirlə yekunlaşdırılmasına əlverişli şərait yaradır. Qiymətlərin təkmilləşdirilməsi istiqamətində istər təkmil və istərsə də məqsədli qiymətlər sistemindən istifadə edilməsi hesabına ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə müəyyən qədər kömək etmək olar. Bu da qloballaşan iqtisadi münasibətlər şəraitində rəqabət qabiliyyətli kənd təsərrüfatı istehsalının həyata keçirilməsinə və eləcə də əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə nəzərəçarpacaq töhfə verə bilər.

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatında əmtəə istehsalçıları üzləşdikləri bir sıra problemləri sərbəst şəkildə həll etmək imkanına malik olmurlar, xüsusilə maddi-texniki resurslara olan tələbatın ödənilməsi, eləcə də məhsul satışı ilə bağlı problemlərin həllində. Məhz belə bir şəraitdə kənd təsərrüfatında əmtəə istehsalçıları arasında könüllü kooperasiya və inteqrasiya münasibətlərinin inkişaf etdirilməsi obyektiv zərurətdən irəli gəlir.

Bütövlükdə ərzaq təminatının yaxşılaşdırılması kooperativ sektorunun inkişafından da xeyli dərəcədə asılıdır. Ona görə də kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi baxımından kooperasiya və inteqrasiya münasibətləri kooperativ tənzimləmə vasitəsi kimi də xarakterizə edilə bilər. Kənd təsərrüfatında kooperasiya və inteqrasiya münasibətlərinin inkişaf etdirilməsi təsərrüfat subyektlərinin fəaliyyətinin əlaqələndirilməsində əhəmiyyətli rol oynamaqla, onların maliyyə imkanlarının genişlənməsində də mühüm əhəmiyyət kəsb edəcəkdir.

Tədqiqat işinin sonunda əldə edilən nəticələr, elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr verilmişdir.

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:

1. Kənd təsərrüfatı istehsalının müasir vəziyyətinin təhlili. Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri. Bakı, 2003, № 1, s.135-141.
2. Aqrar sahədə iqtisadi münasibətlər sisteminə dair. Azərbaycan Elmi–Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri. Bakı, 2004, № 2, s. 170-174.
3. Bazar iqtisadi münasibətləri şəraitində müəssisələrdə marketinqin tətbiq edilməsinin əsas istiqamətləri. ”Kooperasiya” elmi-nəzəri jurnal. Bakı, 2008, № 2 (17), s. 46-50.
4. Aqrar sahədə iqtisadi münasibətlər sisteminin tərkib elementləri. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri. Bakı, 2008, № 1, s. 305-308.
5. Beynəlxalq iqtisadi münasibətlərdə marketinq tədqiqatlarının rolu. “Kooperasiya: Tarix və reallıqlar” mövzusunda II elmi-nəzəri konfransın

materialları. II buraxılış. “Kooperasiya” nəşriyyatı. Bakı, 2009, s. 147-150.

6. Böhran dövründə antiböhranlı idarəetmə. “Kooperasiya” elmi–nəzəri jurnal, Bakı, 2009, № 1-2 (18-19), s. 24-30.

7. Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsində qiymət siyasətinin rolu. “Azərbaycan Aqrar Elmi” elmi-nəzəri jurnal. Bakı, 2010, № 5, s.143-145.

8. Государственные целевые программы, национальные проекты и их значение в инвестиционном развитии аграрного сектора экономики. Аграрно–экономическая наука и технологии. Международный научно-методологический и практический, ежеквартальный реферированный журнал. Тбилиси, 2010, № 2 (7), с. 54-57.

9. Müasir şəraitdə kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin bəzi məsələləri. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. “Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2011, s. 292–294.

10. Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsi istiqamətləri. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun 50 illik yubileyinə həsr olunmuş “Aqrar iqtisadiyyatın aktual problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2012, s.282-286.

11. Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin zəruriliyi. AMEA-nın İqtisadiyyat İnstitutu. Elmi Əsərlər. III buraxılış. Bakı, 2012, s. 224-229.

12. Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin institusional əsasları. “Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 27-28 iyun 2012,s.573-576.

13. Kənd təsərrüfatında maliyyə münasibətlərinin təkmilləşdirilməsinin bəzi məsələləri. “Koorperasiya” elmi-nəzəri jurnal. Bakı, 2012, № 2 (25), s. 61-65.

14. Kənd təsərrüfatının kooperasiya və intiqrasiya münasibətlərinin təkmilləşdirilməsi. “Azərbaycan Aqrar Elmi” elmi-nəzəri jurnal. Bakı, 2012, № 4, s. 131-136.

15. Müasir şəraitdə aqrar-sənaye kompleksində kooperativ hərəkatın ən mühüm istiqamətləri. “Azərbaycan Aqrar Elmi” elmi-nəzəri jurnal. Bakı, 2013, № 1, s.187-189.

16. Kənd təsərrüfatında iqtisadi vasitələrlə tənzimlənməsinin mövcud vəziyyətinin təhlili. “Kooperasiya” elmi–nəzəri jurnal. Bakı, 2013, № 1(28), s.27-35.

17. Kənd təsərrüfatında iqtisadi münasibətlərin tənzimlənməsinin əsas yolları. “Audit” jurnalı. Bakı, 2013, № 3, s. 158-163.



18. Пути совершенствования ценового механизма в сельском хозяйстве. «Аграрная наука» ежемесячный научно-теоритический и производственный журнал. Москва, 2013, № 5, стр. 2–3.

19. Совершенствование контроля маркетинговой деятельности предприятий аграрного сектора. «Проблемы развития АПК региона» научно-практический журнал. Махачкала, 2013, №2 (14), стр.95-100.



*Шакур Орудж оглы Сафаров*

**Направления регулирования экономических отношений в сельском хозяйстве**

**Резюме**

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

**Во введении** обоснована актуальность темы диссертации, степень ее изученности, определены цель и задачи, объект и предмет, научная новизна и практическая значимость, методология и информационная база исследования.

В первой главе диссертации **«Научно-теоретические основы регулирования экономических отношений в сельском хозяйстве»** раскрыты сущность, характерные особенности и подчеркнута необходимость регулирования аграрных взаимоотношений. В этой главе также исследованы формы и методы этого регулирования, изучен опыт зарубежных стран в этой области, показаны возможности его применения в Азербайджане.

Во второй главе **«Оценка современного состояния регулирования сельского хозяйства экономическими средствами»** анализированы факторы, влияющие на развитие сельского хозяйства в современных условиях, и дана оценка нынешнему состоянию регулирования экономических отношений в сельском хозяйстве.

В третьей главе диссертации **«Основные направления регулирования экономических отношений в сельском хозяйстве»** определены основные контуры регулирования финансовых отношений, разработаны пути совершенствования ценового механизма, исследованы основные цели кооперативных и интеграционных связей сельского хозяйства.

**В заключении** обобщены основные результаты исследования, изложены конкретные предложения и рекомендации, представляющие определенный научно-практический интерес.



*Shakur Orudj Safarov*

**Direction of economical relations in agriculture**

**Summary**

Dissertation consist of 3 chapters: conclusion and literature.
Introduction talks of topicality of dissertation, the level of its scrutiny, its aim and problems, objects and subjects, its originality and practical significance, methodology, informational bases of researches.

At the first chapter of dissertation mentioned about **"Scientific theoretical foundations in regulations of economical relations"** at the agriculture, revealed essences, features and stressed the need to regulation of agrarian relations.

At the second chapter mentioned the **"Important directions of regulations in agrarian sector due to economical devices"**, analyzed factors influencing to the development of agriculture in modern conditions, assessed to the current condition of the regulation in economical relations of the agricultural sphere.

At the third chapter **"Main directions of regulations in conomical relations in agriculture"** identified the main regulation of financial relations, developed ways to improve the price mechanism, researched the main objectives of cooperative and integration links at the agricultural sphere.

In conclusion summarized the main results of the researches. Set out the accurate and specific offers and recomendations, representing, the certain scientific and practical interest.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 13, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə çap olunmuşdur.
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**Шакур Орудж оглы Сафаров**

# Направления регулирования экономических отношений в сельском хозяйстве

**5312.01 – «Отраслевая экономика»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономике

**Гянджа – 2014**